İPƏK YOLU, No.3, 2024, səh.13-21
https://doi.org/10.30546/SI.2024.2.3.304

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ İNVESTİSİYA QOYULUŞLARININ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Habil Aslanov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: dosent@mail.ru

**Xülasə.** Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə bir şəraitdə ölkəmizin iqtisadiyyatına investisiya qoyuluşlarında milli iqtisadiyyatımızın prioritet sahəsi olan işğaldan azad olunmuş ərazilərin davamlı inkişaf istiqamətini müəyyən etmək olduqca zəruridir. Yeni iqtisadiyyat quruculuğu şəraitində işğaldan azad olunmuş ərazilərə yönələn istər yerli, istər xarici investisiya qoyuluşlarının cəlbediciliyinin və investisiya qoyuluşu imkanlarının genişləndirilməsi sahəsində onların səmərəliliyinin elmi-nəzəri təhlili və qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir ki, məqalədə bu və digər məsələlər öyrənilmişdir.

**Açar sözlər:** İşğaldan azad olunmuş ərazi, iqtisadiyyatın bərpası, investisiya qoyuluşu, səmərəlilik, davamlı inkişaf.

## EVALUATION OF THE EFFECTIVENESS OF INVESTMENTS IN TERRITORIES LIBERATED FROM OCCUPATION

**Habil Aslanov**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract.** Currently, large-scale measures are being taken in the direction of the restoration of the territories liberated from occupation, ensuring their further development, creating the necessary infrastructure and returning the population to their native lands. In such a situation, it is necessary to determine the direction of sustainable development of the territories freed from occupation, which is the priority direction of the national economy, from the point of view of investments in the economy of the country. In the conditions of building a new economy, the scientific-theoretical analysis and evaluation of their efficiency in the field of attractiveness of both local and foreign investments directed to territories freed from occupation and expansion of investment opportunities is of great importance, and these and other issues are studied in the article.
**Keywords:** Liberated territory, restoration of economy, investment, efficiency, sustainable development.

## ОЦЕНКА ЭФФЕКТИВНОСТИ ИНВЕСТИЦИЙ В ОСВОБОЖДЕННЫЕ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИИ

**Габиль Асланов**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** В настоящее время проводятся масштабные мероприятия в направлении восстановления освобожденных от оккупации территорий, обеспечения их дальнейшего развития, создания необходимой инфраструктуры и возвращения населения на родные земли. В такой ситуации необходимо определить направление устойчивого развития освобожденных от оккупации территорий, что является приоритетным направлением национальной экономики, с точки зрения инвестиций в экономику страны. В условиях построения новой экономики большое значение имеет научно-теоретический анализ и оценка их эффективности в области привлекательности как местных, так и иностранных инвестиций, направляемых на освобожденные от оккупации территории, расширения инвестиционных возможностей, и эти и другие вопросы исследуются в статье.
**Ключевые слова:** Освобожденная территория, восстановление экономики, инвестиции, эффективность, устойчивое развитие.

## 1. Giriş

Bildiyimiz kimi ölkəmizdə uzun müddətli dövr üçün düşünülmüş iqtisadi siyasət makroiqtisadi sabitlik və dinamik inkişaf üçün əsaslı zəmin yaratmışdır. Bu isə ölkəmizin inkişaf modelində dünyada təşəkkül tapmış dördüncü sənaye inqilabının tələblərinə uyğun təkmilləşdirmələrin aparılmasını, yeni baxışların formalaşdırılmasını ortaya qoymuşdur. XXI əsrin başlanğıcında Qara qızılı insan kapitalına çevirmək və innovasiya təyinatlı iqtisadiyyat yaratmaq, Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş ölkə səviyyəsinə çatdırmaq konsepsiyaları irəli sürülmüş və icra edilməkdədir.

Bu xüsusən də Vətən müharibəsində əldə olunmuş qələbə nəticəsində 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımızın azad olunmasından sonra ölkəmizdə yeni iqtisadiyyat quruculuğunun həyata keçirildiyi bir vaxtda, dövlətimizin diqqət mərkəzində olan azad olunmuş ərazilərin bərpası və dayanıqlı sosial iqtisadi inkişafı ilə bağlı məsələlərin nəzəri cəhətdən araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan regionda aparılan yenidənqurma və bərpa işlərinə investisiya cəlbediciliyinin səmərəliliyinin elmi-nəzəri cəhətdən araşdırılması olduqca aktualdır və əhəmiyyətlidir.

Bütövlükdə, investisiyalar makroiqtisadiyyatda 2 mühüm rol oynayırlar. Birinci, investisiyalar xərclərin nisbətən böyük və dəyişkən komponenti olduğuna görə, məcmu tələbə kəskin təsir göstərə bilər; məcmu tələbin dəyişməsi isə öz növbəsində istehsala və məşğulluğa təsir göstərəcəkdir. İkinci, investisiyalar kapital yığımına səbəb olur. Avadanlıq və digər amillərin artımı ölkənin potensial istehsalını genişləndirir və uzun müddətə iqtisadi artımı təmin edir. Beləliklə, investisiyalar ikili rol oynamaqla: qısa müddətdə istehsala məcmu tələb ilə təsir göstərir və uzun müddətli dövrdə kapitalın yaranmasının potensial istehsala və məcmu təklifə təsir göstərir.

İnvestisiya fəaliyyəti İnvestisiya siyasəti vasitəsilə, daha doğrusu investisiyada risklərin idarə olunması, o cümlədən risklərin aşağı salınması ilə reallaşdırılır ki, bu da öz növbəsində investisiyaların təhlükəsizliyinə yönəldilir. Bu təhlükəsizlik, investisiyaların investisiya bazarında baş verən proseslərdən asılı olmamasını və gəlirin sabitliyini nəzərdə tutur. İnvestisiya fəaliyyəti investisiya mühiti ilə bağlıdır. İnvestisiya cəlb ediciliyi ölkədə formalaşan investisiya mühiti ilə müəyyən edilir. İnvestisiya mühiti milli iqtisadiyyat çərçivəsində formalaşan ümumi işgüzar mühitin ayrılmaz tərkib hissəsidir. İnvestisiya mühiti həm hüquqi, həm də iqtisadi sahəni əhatə edir.

İnvestisiyaların cəlb edilməsinin başlıca şərti investisiya mühitinin yaxşılaşdırılmasıdırsa, bu prosesin təmin olunmasının əsas amili hüquqi bazanın möhkəmləndirilməsidir. Bu zaman - hüquqi normalarda nəzərdə tutulan dəyişikliklər haqqında investorların əvvəlcədən məlumatlandırılması və investorların fəaliyyətinə ekoloji reqlament qoyulması məsələləri diqqət mərkəzində olmalıdır. İnvestisiya mühitinin qiymətləndirilməsində siyasi və iqtisadi sabitlik, qanunvericiliyin mükəmməllik dərəcəsi, vergi sisteminin səmərəliliyi infrastrukturun inkişaf səviyyəsi və s. göstəricilər istifadə edilir. Onu da

qeyd edək ki, bu mühit həmçinin, məqsədyönlü investisiya fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksinin təsiri altında təşəkkül tapır. İnvestisiya mühiti sosial-iqtisadi, siyasi və ya investisiyanı qaytaran maliyyə amillərinin məcmusudur.

## 2. İnvestisiyaların iqtisadi səmərəliliyinin artırılması

İqtisadi artım elementlərindən olan investisiyaların iqtisadi səmərəliliyi məsələsi mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, indiki şəraitdə iqtisadi inkişafın əsas məqsədlərindən biri investisiyalardan istifadənin səmərəliliyinin yüksəldilməsidir. Bu səmərəlilik mənfəət, əmək məhsuldarlığı göstəriciləri ilə xarakterizə olunur. İnvestisiyaların iqtisadi səmərəliliyi Ümumi milli gəlir və Ümumi daxili məhsul göstəricilərindən istifadə etməklə müəyyən edilir. O da tətbiq olunmuş investisiyaların hər vahidindən cəmiyyətin və təsərrüfat subyektlərinin nə dərəcədə yararlanmasını özündə əks etdirdiyinə görə burada iqtisadi səmərəlilik əmsallarından istifadə olunur ki, onlara kapitaltutumluluq, kapitalverimlilik, materialtutumluluq, əmək məhsuldarlığı, rentabellik və s. aiddir. İqtisadiyyata investisiyaların faktiki iqtisadi səmərəliliyi hesablanarkən, onların hər bir manatına orta hesabla hansı miqdar Ümumi daxili məhsulun artımını təmin etməsi əsas götürülür.

İqtisadi nəzəriyyələrin elmi məktəb nümayəndələrinin problemlə bağlı apardıqları araşdırmaları sübut edir ki, iqtisadi inkişafın səviyyəsindən asılı olmayaraq milli iqtisadiyyata investisiya qoyuluşu problemi həmişə diqqət mərkəzində olan aktual problemlərdən biridir. Lakin bu aktuallıq müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı sistemini formalaşdırmış respublikamız üçün daha vacibdir. Bu onunla izah edilir ki, iqtisadiyyatın artım sürətinin təmin olunması, onun sabit səviyyəsinin yaradılması milli iqtisadiyyatın bütün sahələrinin müvazinətli inkişafının qorunması, əhalinin mənafeyinə cavab verən bazar mühitinin formalaşması, investisiyanın səfərbərliyə alınmasından, onun düzgün istiqamətləndirilməsindən bilavasitə asılıdır.

İnvestisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. Bu mənbə hesabına nəinki, istehsal inkişaf etdirilir, eyni zamanda iqtisadiyyatın strukturunda ciddi sosial yönümlü dəyişikliklər baş verir. Nəzərə alsaq ki, ümumiyyətlə investisiya anlayışları, məna etibarilə mənfəət almaq məqsədilə həm ölkə daxilində, həm də xaricində tətbiq olunan maliyyə resursudur, onda, istər-istəməz onun iqtisadiyyatın bütün sahələri üzrə tətbiq olunması meyli ortaya çıxır.

Milli iqtisadiyyatın formalaşmasında və inkişafında investisiyalar mühüm struktur yaradan funksiyalar yerinə yetirir. Milli iqtisadiyyatın istər sahə strukturunun, istərsə də texnoloji və təkrar istehsal strukturunun inkişafı onun hansı sahələrinə vəsait qoyuluşunun tətbiqindən asılıdır. Bəlli olduğu kimi xüsusi təyinatlı investisiyalar, əsasən, gəlir əldə etmək məqsədi daşıyır. Qeyd edək ki, iqtisadiyyatın inkişafına sərf edilən investisiyalardan istifadə səmərəliliyi nə qədər yüksək olarsa, yığımın hər bir vahidi hesabına daha çox hazır məhsul və milli gəlir yaradılacaq, eyni ilə iqtisadi inkişafın nəzərdə tutulan səviyyəsinə nail olmaq üçün bir o qədər az vaxt və vəsait tələb olunacaqdır.

Dünya təcrübəsində iqtisadiyyatın hər hansı bir sahəsinin vəsait qoymaq nöqteyi-nəzərindən əlverişli olub-olmamasını müəyyənləşdirmək üçün əmsallar qrupundan istifadə edirlər. Həmin əmsalların faktiki qiymətləri, normativ və ya böhran vəziyyətini əks etdirən səviyyələrdə tutuşdurulur və nəticə əldə edilir. Təbii ki, bu halda təhlil üçün, hansı əmsalların istifadə ediləcəyi və normativ (və ya böhran) kəmiyyəti təyin edilməlidir. Adətən, əsas amilləri beş qrupa bölürlər: maliyyə dayanıqlığı, işgüzar fəallıq, səmərəlilik, inkişaf dinamikası və ödəniş qabiliyyəti.

Əvvəldən də qeyd olunduğu kimi, Azərbaycanın dayanıqlı sosial iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir.

Belə ki, Prezident İlham Əliyev 2021-ci ilin yekunlarına dair keçirilmiş müşavirədə, torpaqlarımızın işğaldan azad edilməsinin son otuz ilin ən mühüm tarixi hadisəsi olduğunu qeyd etmişdir. Eyni zamanda, əzəli yaşayış məskənlərimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsi qarşıya qoyulan mühüm vəzifə kimi müəyyən edilmişdir.

Beləliklə, beynəlxalq təcrübə onu göstərir ki, ilkin olaraq dəymiş zərəri müəyyənləşdirdikdən sonra minimum yaşayış səviyyəsinin təminatı prioritetdir. Minimum yaşayış səviyyəsinin təminatını nəzərdə tutan vacib amillər aşağıdakılardır: İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, Elektrik enerjisinin təminatı, Kritik yol xətlərinin bərpası, İçməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası, Ev/mənzil yaşayış sahələrinin bərpası və təminatı, Humanitar yardım məqsədləri üçün hava limanının bərpası. İlkin mərhələdə bu sahələrə yönələn sərmayə sonrakı dövrdə sosial və iqtisadi canlanmaya dəstək olaraq müəyyən edilmişdir. Bu vəzifələrlə əlaqədar olaraq, işğaldan azad olan ərazilərin bərpası və inkişaf istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də, qeyri-neft sektoruna, yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacağını nəzərdə tutur. Bu işlərin görülməsi zamanı dövlət vəsaitinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı, meliorasiya sisteminin qurulması və sair sahələr üzrə investisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlarından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiq olunması məqsədəuyğun hesab edilmişdir. Bildirim ki, artıq 2021-ci ilin dekabrın 10-da ölkə başçısının bu ərazilərdə istehsal fəaliyyətinin həyata keçirəcək təsərrüfat subyektlərinin xammal və avadanlıqlar gətirilməsini idxal rüsumlarından müəyyən müddət azad olunması, həmçinin həmin sahibkarların güzəştli vergilərə cəlb olunmasını nəzərdə tutan sərəncamın imzalanması bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlərdəndir.

Bu işləri müvəffəqiyyətlə yerinə yetirmək üçün Prezident İlham Əliyevin hələ 4 yanvar 2021-ci il tarixli fərmanı ilə “Qarabağ Dirçəliş Fondu” yaradılıb. Bu fond işğaldan azad edilmiş

ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyatın təmin edilməsi üçün bir vasitədir. Bununla yanaşı, 2021-ci ilin dövlət büdcəsindən 2.2 milyard manat, 2022-ci ildə 2.6 milyard manat, 2023-cü ildə 3 mlrd. manat vəsait ayrılmış, həmçinin dövriyyəyə cəlb olunmaqla milli sərvət-torpaq, meşə, su, faydalı qazıntılar, əmlak və mədəni sərvətlər kapitalının həcmini əsas fondlar kimi resurslardan istifadəsi də nəzərdə tutulmuşdur. Bütün bunlardan səmərəli istifadə olunması işğaldan azad olunmuş ərazilərin davamlı inkişafının təmin edilməsi məqsədilə nəzərdə tutulmuşdur.

## 3. İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının təhlili

Vurğulamaq yerinə düşər ki, 2021-ci il ərzində Birləşmiş Millətlər Təşkilatı tərəfindən davamlı inkişaf üçün "Beynəlxalq Yaradıcı İqtisadiyyat" ili elan olunmuşdur. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının nümunəvi üzv dövləti olaraq bu təşəbbüsə qoşulmaqla işğaldan azad olunmuş ərazilərdə ardıcıl davamlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində investisiyaların cəlb edilməsini nəzərdə tutan proqramların icrası təmin edilmiş, 2022-ci ildə prosesi daha da gücləndirmişdir. Bunlar işğaldan azad olunmuş ərazilərdə dayanıqlı inkişaf məqsədlərinə uğurla nail olunmasında mühüm rol oynayacaqdır. Qeyd etmək lazımdır ki, 30 il ərzində düşmən ərazilərimizdə nəqliyyat infrastrukturunu və avtomobil nəqliyyatını məhv etmişdir. Belə ki, 22 avtonəqliyyat müəssisəsi, 10 avtovağzal və avtostansiya kompleksi, avtonəqliyyat müəssisələrinə məxsus Ağdamda 160, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndində 350, Kəlbəcərdə 70, Ağdərədə 30, Xocavənddə 10, ümumilikdə, 1015 ədəd nəqliyyat vasitələri talan edilib, yararsız hala salınmışdır. Məhv edilən nəqliyyat infrastrukturunun və maddi texniki bazasının yenidən qurulması üçün ayrılmış investisiyalardan səmərəli istifadə vacib məsələlərdən biridir. Hazırda Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolları, Bərdə-Ağdam dəmiryolunun inşasına artıq başlanmışdır. İşğaldan azad edilmiş ərazilərin sənaye potensialını nəzərə alsaq, Füzulidə artıq beynəlxalq hava limanı inşa edilərək istifadəyə verilmişdir. Əhmədbəyli-Füzuli-Şuşa "Zəfər yolu"nun təməli qoyulmuşdur. "Zəfər yolu" işğaldan azad edilmiş Füzuli, Xocalı, Xocavənd və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilir. Avtomobil yolu Füzuli və Şuşa şəhəri də daxil olmaqla sözü-gedən rayonların 20-dən artıq yaşayış məntəqələrini əhatə edir.

Tikinti işləri inşa, norma və qaydalarının tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Eyni zamanda, Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra Laçına qədər yolun çəkiliş işlərinə də hazırlıq işləri görülür. İşğaldan azad edilmiş rayonlarda 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə-yaşayış evləri və inzibati binalarla yanaşı, 700 tarixi-mədəni abidə, 927 kitabxana, 800 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, ümumilikdə, 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 2 konsert zalı məhv edilmişdir. Bunların bərpası üçün tələb olunacaq milyardlarla investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Regionun bərpası və yenidən qurulması üçün ilkin aparılan hesablamalara görə 80 milyard manat vəsait tələb olunur.

## 4. İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə kəndlərin "Ağıllı kənd" layihəsi əsasında qurulması nəzərdə tutulmuşdur. Bu layihə demək olar ki, birinci pilot layihəsi kimi icra edilir. "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi artıq Zəngilan rayonun Ağalı kəndindən başlanmışdır. Bu layihənin yerinə yetirilməsinə cəlb edilmiş və ediləcək yerli və xarici investisiyalardan səmərəli istifadəsi əsas vəzifə hesab olunur.

İşğaldan azad edilmiş ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalanıb. Sərəncama əsasən, ölkənin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq layihənin və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsindən nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb. İşğaldan azad olunan rayonlarda "yaşıl enerji" zonasının yaradılması üçün çox böyük potensial imkanlar olduğundan bu regionda, əsasən, Laçın-Kəlbəcər bölgələrində külək enerjisindən, Zəngilan-Cəbrayıl ərazilərində isə günəş enerjisindən istifadə imkanlarının geniş olması nəzərdə tutulur. Proqramda nəzərdə tutulur ki, enerji generasiya güclərini, ötürücü xətləri yenidən qurmaqla Qarabağ "Yaşıl enerji" zonasına çevriləcəkdir.

Bu proqram çərçivəsində Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir. "Yaşıl enerji" zonası layihəsinin Qarabağ və ətraf rayonlarda reallaşdırılmasında potensial imkanlarla yanaşı, digər amillər də nəzərə alınmışdır. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldiyindən, Qarabağın bərpa-yenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür. Başqa sözlə, "yaşıl enerji" zonası kimi bərpa olunması nəzərdə tutulan Qarabağın, dünyanın ən müasir yaşayış məskənlərindən biri olaraq yenidən qurulması nəzərdə tutulur. Eyni zamanda işğaldan azad edilən ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Onu da qeyd etməliyik ki, hazırda Azərbaycanın elektroenergetika, o cümlədən bərpa olunan enerji mənbələri sahəsinə xarici və yerli investorların marağı getdikcə artır. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonunda dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovatlıq şəbəkənin yaradılacağı nəzərdə tutulub. Burada Eyni zamanda "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının inşası da nəzərdə tutulmuşdur.

**Nəticə.** Ölkə başçısının tapşırığına əsasən, işğaldan azad edilmiş torpaqlarda aqrar sahənin inkişafı ilə bağlı mühüm tədbirlər görülür. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi

"Azərkosmos" ASC azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqların peyk təsvirləri əsasında xəritələşdirməsini aparıb. Həmin torpaqlarda əkinlərə, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq göstərilməsi məqsədilə işlərə başlanılıb. Əlbəttə, ən əsas vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərdə torpaqdan səmərəli istifadəyə nail olmaqdır. Öncə ərzaq təhlükəsizliyi məqsədilə hansı məhsulların əkilməli olduğu dəqiqləşdirilir. Belə ki, azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sayəsində çox böyük potensialı var. Kəlbəcər, Laçın rayonları geniş örüş, otlaq sahələrinə malikdir. Azad edilmiş torpaqlarda emal müəssisələrinin yaradılması, aqrar-sənaye komplekslərinin qurulması, daxili tələbin ödənilməsi ilə yanaşı ixrac imkanlarının genişləndirilməsi də mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bunlar azad edilmiş torpaqlarda ixrac potensialını artırmasına və şaxələndirilməsinə imkan verəcək. Bu məsələlər "Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair milli prioritetlər"də də xüsusi yer almışdır. Belə ki milli prioritetlərə uyğun olaraq, bu istiqamətdə işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanıb. Göründüyü kimi, Qarabağın bölgələrində kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq başlanılan işlər indidən uğur vəd edir. Belə ki, Azərbaycanın işğaldan azad olunan torpaqlarda bu potensialdan üzümçülük, tütünçülük, pambıqçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün səmərəli istifadə etmək gücündədir. Həmçinin bu baxımdan fermerlərin kənd təsərrüfatı texnikasına tələbatını ödəmək məqsədilə onlara minlərlə maşın və mexanizm verilməsi, həmçinin minlərlə baş damazlıq heyvanların satışı maliyyələşdirilib. Ötən il xeyli sayda fermerə mikrokreditlər verilib, bu ildən isə həmin kreditlər artıq olacaqdır. Eyni zamanda bölgədə emal və ərzaq sənayesinin inkişaf potensialı yetərincədir. Bunlarla yanaşı olaraq arıçılığın inkişafı da xüsusi əhəmiyyət kəsb edir. Bu potensiallar sırasında ipəkçilik üzrə Cəbrayıl rayonun və Şuşa şəhəri, toxuculuq üzrə Kəlbəcər, Cəbrayıl, Tərtər, Qubadlı, Füzuli və Xocavənd rayonlarını inkişaf etdirmək məqsədəuyğundur. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində Kəlbəcər, Tərtər və Füzuli, göndəri emalı üzrə Ağdam, Cəbrayıl, Laçın və Füzuli rayonları geniş potensialı ilə diqqət çəkir. İşğalda olan ərazilərdə su ehtiyatı da zəngindir. Belə ki, Azərbaycanın işğal altında olan su resurslarına çıxışı əhəmiyyətlidir. Bu su ehtiyatları ölkəmizin su ehtiyatlarının əlavə olaraq 20 faiz artmasına imkan vermişdir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə edilə bilər.

İşğal olunmuş ərazilərimizdə bu illər ərzində ermənilərin mənimsədiyi qızıl, mineral su və digərləri haqqında bunları demək olar: işğal olunmuş ərazilərdə 155 növ müxtəlif faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl (ehtiyatı 132,6 ton; 6 civə ( 1898,4 ton); 2 mis; 1 qurğuşun (37,3 min ton); 19 üzlük daşı (432 min $m^3$); 10 mişar daşı (189 mln $m^3$); 4 sement xammalı (147 mln 108 min ton); 13 müxtəlif növ tikinti daşları (57 mln 965 min ton); 1 soda istehsalı üçün xammal (129 mln 833 min $m^3$ əhəngdaşı); 21 pemza və vulkan gili (2 mln 144 min $m^3$); 10 gil (23 mln 243 min $m^3$); 9 qum-çınqıl (96 mln 987 min ton); 5 tikinti qumu; 9 gips, anhidrid və gəc; 1 perilit (4 mln 473 $m^3$ perilit); 1 obsodion; 3 vermikulit; 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s.) yataqları yerləşir. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı 791 müraciət daxil olub. İnvestisiya

layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir. Dövlət Turizm Agentliyinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərdə mehmanxana təsərrüfatı və turizm fəaliyyətlərinin təşkili sahəsində 11 investisiya layihəsinin ilkin qiymətləndirilməsi aparılıb.

Bütün bunlarla bərabər, dağ-mədən sənayesi üzrə Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis, gümüş, civə və xromit ehtiyatları, Cəbrayıl rayonunda yerləşən “Yəşəm” və “Xalsedon” yataqları zərgərlik sahəsini inkişaf etdirməyə imkan verir. Eyni zamanda Şuşa, Laçın və Kəlbəcərdə dağ turizmi, ekoturizmi, müalicəvi turizm, mədəni turizm üçün yararlı sayda digər rayon və şəhərlərimizin potensialından istifadə etmək Qarabağın iqtisadi dirçəlişinə böyük töhfə verəcəkdir. Belə ki, Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizmi inkişaf strategiyasının və siyasətini hazırlayır. Bu qənaətə görə, işğaldan azad edilmiş ərazilərdə bir neçə turizm klasteri yaradılması nəzərdə tutulmuşdur. Bu, ilk növbədə Füzuli-Xocavənd-Şuşa-Laçın istiqamətidir. Digər klaster paralel Füzuli-Cəbrayıl-Zəngilandır. Zəngilan-Qubadlı üçüncü, Kəlbəcər Laçın dördüncü klasterdir. Beşinci klasterə Bərdə-Ağdam daxildir. Regionların ayrı-ayrılıqda potensialında Şuşanın imkanları yüksək qiymətlən-dirilir. Burada mədəni tədbirləri təşkili, festival-turizm məhsulları təqdim edilə bilər. Laçın-Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı və Zəngilanda mədəniyyət və təbiət, Füzuli, Ağdam, Cəbrayılda mədəniyyət və işğalın nəticələrini göstərməklə bəzi tikililəri saxlamaqla turistlər üçün nümayiş etdirmək də zəruridir. Göründüyü kimi, turist axınının coğrafiyası genişlənir. Belə ki, Xudafərin körpüsü vasitəsilə İrandan, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını gözlənilməkdədir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında sərəncamda qeyd edilir ki, əldə edilən iqtisadi üstünlük, hər şeydən öncə, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaqdır.

Bütövlükdə işğaldan azad olunmuş iqtisadi rayonların yenidən qurulması Azərbaycanın strateji rolunu əhəmiyyətli dərəcədə artıracaq. Belə ki, yeni iqtisadi rayonların bərpasında strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intevsivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin rəqabət qabiliyyətliliyinin, həm də siyasi və iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə artmasına real potensial imkan yaradacaqdır.

**Ədəbiyyat**


1. Azərbaycan respublikası regionlarının 2019-1023-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət proqramı. Bakı, 29.01.2019.
2. Əliyev İ.H. (2015), İnkişaf məqsədimizdir. İyirmi altıncı kitab. Bakı, 400.
3. Nuriyev Ə.X. (2004), Regional siyasət və idarəetmə. Bakı, 348.
4. Vəliyev A.H. (2020), İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarının potensialının dəyərləndirlməsi. Kənd Təsərrüfatının İqtisadiyyatı Jurnalı, No.3, 60-68.
5. İbrahimov İ.H. (2021), Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Monoqrafiya, Bakı, 239.